**Şöhrət Nüsrət qızı Məmmədova** [82]

# HÜSEYN ƏFƏNDİ QAYIBOV: BÖYÜK MAARİFÇİ, ƏDƏBİYYATŞÜNAS

**Giriş**. Çar Rusiyasının Azərbaycanı (ümumiyyətlə, Qafqazı) işğalı və regionda yeritdiyi özününküləşdirmə konsepsiyası bir kontinuum olaraq milli toplumlar səviyyəsində oyanışları və dərki müstəsna olan kimi zərurətə çevirdi. Lokal və milli aspektdə başlayan hərəkətlilik ziyalıların üzərinə daha böyük vəzifələr qoydu və bütünlükdə proses timsalında gedişlərin gərəkliliyini qaçılmaz etdi. H.Ə.Qayıbovun həyat kredosu və fəaliyyət sferasının əhatəliliyi bunun tipik nümunəsidir. Bütünlükdə çağdaş elmi-nəzəri mühit onu Qafqazın müftisi (Zaqafqaziya Sünni Məzhəb İdarəsinin sədri) kimi tanımaqla və bu istiqamətdə gördüyü işlərlə diqqət önünə gətirir. Ancaq maarifçilik baxımından gördüyü gərəkli işlər, Qazax qəzası Salahlı kənd məktəbinin açılması (1875), Qori müəllimlər seminariyasında tatar (Azərbaycan) şöbəsinin yaranması (1879) və buna qədər fəaliyyəti bütün paradiqması ilə görkəmli ədibin ümumi məfkurəsində müəyyənləşmiş konseptin reallaşmasına bağlanır. Bütün bunların bir sistem olaraq aydınlaşması müasir elmi-pedaqoji, nəzəri-filoloji və tarixi-mədəni prosesin qarşısında duran ümdə məsələlərdəndir.

**On doqquzuncu yüzilliyin maarifçilik məfkurəsi və H.Ə.Qayıbov**. On doqquzuncu yüzilliyin maarifçilik məfkurəsində müəyyənləşmiş sistem özlüyündə milli şüurun metodologiya səviyyəsində dərkinə gəlinən yolun dinamikasına köklənməklə addımlamağa həssaslıq nümayiş etdirir. Gerçəklik // Şüur // Qavram daxilində mürəkkəb hadisə və proses axınını proyeksiyalaşdırır. M.Kazımbəy, A.Bakıxanov, M.Ş.Vazeh, H.Ə.Qayıbov, M.F.Axundzadə, S.Ə.Şirvani, A.O.Çernyayevski, S.Vəlibəyov, R.Əfəndiyev, F.Köçərli, S.M.Qənizadə, Ö.F.Nemanzadə, M.Şahtaxtlı və s. kimi görkəmli ziyalılar əsrin mürəkkəb situasiyalarında cəmiyyəti bir sosium səviyyəsində təşkilə qərar verməklə sonrakı proseslərin ümumi sistemini hazırladılar.

H.Ə.Qayıbov (1830-1917) ilk öncə ağla bir maarifpərvər ziyalı, pedaqoq kimi gəlir. İbtidai təhsil aldığı kənddə müəllimlik fəaliyyətinə başlayan ədib məktəbin problemlərini, tədrisdəki qalaqlanan çətinlikləri, uşaq dərsliyi məsələlərini öz fəaliyyətndə canlı şəkildə görüb yaşayırdı. On illik müəllimlik fəaliyyəti (Salahlı kənd məktəbindəki fəaliyyəti nəzərdə tutulur - 1847-1957) onun sonrakı dönəmlərdəki problemlərə köklənməsi baxımından başlanğıc rolu oynayır. Şərq dillərini, ədəbiyyat və mədəni sistemini lazımı qədər mənimsəyən ədib Tiflisə istedadlı müəllim nümunəsi olaraq dəvət edilir. Yeni tipli məktəb açılması zərurətini də elə Salahlıdakı müəllimlik fəaliyyətində dərk etmiş və bunun üçün əlindən gələni əsirgəməmişdi. Mədrəsə tələbələri üçün Tiflisdə yaratdığı "Məsaili-elmi-hesab", "Məbdəyi-təlimi-sübyan" dərslikləri on doqquzuncu yüzillik tədris tarixini öyrənmək üçün əsaslı qaynaqdır.

Azərbaycan məktəb tarixində Qori müəllimlər seminariyasının oynadığı rol müstəsnalığı sərgiləyir və kifayət qədər gərəkli araşdırmalarla (1; 2; 3; 5; 7; 8; 9; 12; 13; 14) diqqət önünə gəlsə də yenə sözə ehtiyac doğurur. M.F.Axundov, A.O.Çernyayevaki ilə bu seminariyada tatar (Azərbaycan) şöbəsinin açılması üçün gərəkli addımlar atan H.Ə.Qayıbov burada təxminən beş il (1879-1894) cü illərdə Azərbaycan dili və şəriət müəllimi kimi fəaliyyət göstərmişdir. "Kəşkül" qəzeti öz səhifələrində ədibin ədəbiyyatşünaslıq fəaliyyətini nəzərə alaraq yazırdı: "Məhəlli qəzetlərin rəvayətinə görə, Zaqafqaziya müftisi Qayıbov cənabları məmləkətimiz mairlərimiz asarını havi bir məcmuə tərtibilə ənqərib təb və nəşr buyuracaqdır. Bu da müfti əfəndinin maarifpərvər və ədəbiyyatdost olduğuna başqa bir şahid olacaqdır" (11). Göründüyü kimi, görkəmli maarifçi, pedaqoq, ədəbiyyatşünas bütün fəaliyyəti boyu elm, təhsil, məktəb, uşaq tərbiyəsi yolunda bir nümunə olaraq problemləri aradan qaldırmağa köklənmişdir.

Görkəmli maarifçi R.Əfəndiyev ədibin həyat və fəaliyyəti ilə bağlı yazdığı "Zaqafqaziya müftisi Hüseyn əfəndi Qayıbovun tərcümeyi-əhvalı" adlı məqaləsində geniş və əhatəli fəaliyyətində uşaq ədəbiyyatı yaratmaq işini, məktəb, təhsil məsələlərini daha həssaslıqla vurğulayır. "Himmətini müsəlman balalarının təlim və tərbiyəsi yolunda sərf etməsi"ni bütün tərəfləri ilə açmağa çalışmışdır (6). Ümumiyyətlə, ədibin qız təhsili, seminariya yaranması ilə əlaqədar çalışmaları mühüm bir hissəni təşkil edir. Məsələnin aydınlığı üçün tarixi faktlra əsaslanmaqla iki yüzdən çox alim və şairlərin, elm, sənət adamlarının fəaliyyəti ilə bağlı mülahizələri bunun örnəyidir. "Keçmişlərdə islam aləmində arvadlarımızın özləri elm və fəzlü kamalda nə dərəcədə tərəqqi və taifələrinə nə qədər rəhbərlik etmişlər" (6). "Açıq söz", "İşıq", "Sovqat", "Kaspi", "Yeni iqbal" və s. kimi qəzetlərin səhifələrində qaldırılan problemlər mövcud geriliklərin aradan qaldırılmasına, elm, maarif, məktəb baxımından problemlərin çözülməsinə, həm də uşaq ədəbiyyatı yaratmaq işinə hesablanmışdı.

**Xalq ədəbiyyatının toplanması və kitablaşdırılması**. H.Ə.Qayıbovun gördüyü ədəbiyyatşünaslıq fəaliyyətində mühüm hissəni toplamaları, publisistik məqalələri, folklorşünaslıq sahəsində həyata keçirdiyi mühüm işlər tutur. "Məcmuə"dəki atalar sözü, məsəl, tapmaca və s. ədibin folklorşünas fəaliyyətinin göstəricisidir. Seminariyada dərs dediyi illərdə tələbələrə bu istiqamətdö tövsiyələri, xalq ədəbiyyatının toplanması işinə cəlb etməyə çalışması sırf reallıqdan irəli gəlir. A.Bakıxanovun, M.F.Axundovun, H.Zərdabinin müraciətləri və xalqın övladlarına başa düşəcəyi əsərlər təqdim etmək uğrunda mücadilələri təsadüfi olmayıb, sırf reallığa bağlanırdı. On doqquzuncu yüzilliyin ayrı-ayrı onillikləri timsalında gedən proses təkcə Azərbaycan baxımından xarakterik məsələ deyildi və daha geniş kontekstdə, bütünlükdə Avropanı əhatələmək xarakteri ilə nəzər-diqqəti cəlb edirdi. Rusdilli mətbuatın bu sahədəki işləri nümunə idi, xüsusilə SMOMPK məcmuəsi öz ruhu ilə bu müstəvidə bir öncüllük sərgiləyirdi. H.Ə.Qayıbovun seminariyada tələbələrini bura yönlətməsi, xalq yaradıcılığının zəngin nümunələrini,

[82] Azərbaycan Dövlət Pedaqoji Universiteti, filologiya üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/.0009-0006-6553-6385
sohret.nesirova24@gmail.com

atalar sözü, məsəl, tapmaca, lətifə, nağıl, dastan və s. toplamağa üstünlük verməsi sonrakı dönəmlərdə öz töhfələrini daha çox verməyə başladı. Həmin tələbələr Azərbaycan folklorunun tarixinə öz adlarını şərəflə yazdılar.

H.Zərdabi, M.Mahmudbəyov, E.Sultanov, T.Bayraməlibəyov, R.Əfəndiyev, M.Qəmərli, F.Köçərli, Ü.Hacıbəyov, N.Nərimanov və başqalarının gərəkli işləri uşaq ədəbiyyatı yaratmaq və folklordan bir qaynaq olaraq yararlanmanın zərurətini ortaya qoyurdu. "Məcmuəyə 523 atalar sözü, 332 məsəl, 71 tapmaca, 185 müəmma, yəni mənzum tapmaca salınmışdır. Mənsur və mənzum tapmacaları (müəmmaları) bir-birindən fərqləndirib ayrıca bölmələrdə verməsi, atalar sözü və məsəllərin dəqiq miqdarını göstərməsi Hüseyn əfəndi Qayıbovun klassik milli poeziya janrları kimi folklor janrlarının da poetik xüsusiyyətlərini mükəmməl bilməsindən xəbər verir. Atalar sözü və məsəllər məcmuənin 81-116-cı səhifələrindədir. 81-ci səhifədə "abrusuzdan abrunu saxla" sözü ilə başlanan bu nümunələr 116-cı səhifədə "yeyən bilməz, doğrayan nə bilər" atalar sözü ilə tamamlanır. Əski Azərbaycan əlifbasının 26 hərfi ilə başlayan və əlifba sırası ilə düzümlənən atalar sözü və məsəllərin bəzisi öz orijinallığı ilə seçilir. Bu nümunələrin içərisində bu vaxta qədər Azərbaycan folkloruna aid nəşr olunmuş kitablara salınanlarla yanaşı, heç bir kitaba düşməyən onlarla atalar sözü və məsəllər mövcuddur" (4, s. 123-124). Onu da əlavə edək ki, bu ensiklopedik zəka sahibinin xalq yaradıcılığına, uşaq ədəbiyyatının yaradılması işinə, təhsil, məktəb məsələlərinə həssaslığı bütün skeptrləri ilə problemlərə bələdliyindən qaynaqlanmaqla onların həllinə yönlənmişdi.

"Məcmuə"də özünə yer alan atalar sözləri ("at öləndə əyəri qalır, adəm öləndə adı", "bəy verən atın dişinə baxmazlar", "ata oğula bağ qıydı, oğul ataya salxım qıymadı", "can de, can eşit", "çobanın könlü olsa təkədən pendir tutar", "xain adam qorxaq olar" və s.) bütün mahiyyəti ilə etnik zənginliyi, min illərin təcrübəsinə dayanan təsəvvürləri və mədəniyyət etiketlərini gələcəyə ötürməyə, gənc nəslə aşılamağa köklənir.

Xalq ədəbiyyatının toplanması və kitablaşdırılması işi ziyalı mühitinin qarşısında duran ən ümdə məsələlərdəndir. On doqquzuncu yüzillikdə bunun məqsədli şəkildə artan tempi ziyalı mühitinin fəaliyyətində (gördüyü işlərdə) özünü daha aydınlıqla göstərir. H.Ə.Qayıbov da öz fəaliyyətində bu məsələlərə xüsusi həssaslıq göstərmiş, hətta seminariyadakı fəaliyyəti zamanı tələbələrin əməyindən xüsusilə bəhrələnmişdir. Burada digər maraqlı tərəf seminariyadakı tələbələrə bu bacarıqların aşılanması məsələsidir. SMOMPK məcmuəsində bu işlərin bir çoxluqla özünə yer alması təsadüfi deyildir və ədəbi-nəzəri fikir öz qənaətlərində bir məsələni çox doğru olaraq vurğulayır və deyir ki, "atalar sözü və məsəlləri toplayıb SMOMPK saylarında nəşr etdirən Azərbaycan ziyalıları deyiləndə ilk öncə gözlərimiz önündə Hüseyn əfəndi Qayıbovun obrazı canlanır" (4, s. 125). Zəngin həyat təcrübəsinə və duyum qabiliyyətinə malik ədibin elmi-pedaqoji, ədəbi-mədəni fəaliyyəti xalqın milli-mənəvi dəyərlərinin gənc nəslə aşılanmasına köklənmişdi.

Məqalələri, məktəb fəaliyyəti, apardığı toplama işləri, ədəbiyyatşünas kimi atdığı gərəkli addımlar və s. bütün aspektləri ilə nümunəyə çevrilmişdir. Xalq ədəbiyyatının toplanması, nəşri və tədqiqi ilə bağlı gərəkli işləri sonrakı onilliklər üçün müstəsna əhəmiyyət kəsb edir. Topladığı tapmaca örnəkləri və onların məktəblərdə dərsliklərə salınması uşaqların bilik, bacarıq və qabiliyyətlərinin inkişafına xüsusi təsir örnəyi idi. Hazırcavablılıq, düşünə bilmək, müxtəlif insani keyfiyyətlərin aşılanması, səriştəlilik və s. kimi məsələlərdə tapmacalar mühüm əhəmiyyət kəsb edir. "O yanı çəpər, bu yanı çəpər, içində atlı çapar" (nehrə), "mən gedərəm, o gedər" (kölgə), "bir balaca boyu var, dam dolusu toyu var" (şam), "dibindən su içər, başından balalar" (sünbül), "ağac başında unlu dağarcıq" (iydə) (10). Xalq ədəbiyyatı örnəklərinin dərsliklərə gətirilməsi və xalqın övladlarının başa düşəcəyi səviyyədə əsəarəlrin yazılması ziyalı mühitinin düşüncəsində oturuşmuş ən ümdə məsələlərdən idi. H.Ə.Qayıbov da məktəbin problemlərini bilən və onun həllinə köklənən ədib kimi öncüllərdəndi.

Yeni tipli məktəblərin yaradılması, milli ruha bağlanan dərsliklərin, kitabların yazılması ən ümdə məsələ kimi on doqquzuncu yüzillik elmi-pedaqoji mühitinin qarşısında dururdu. S.Şirazinin "Büstan", "Gülüstan", H.Şirazi qəzəlləri, eləcə də digər müxtəlif tipli kitablar ("Tarixi-Nadir", "Rövzətüs-səfa", "Əbvabül-cinan" və s.) bütünlükdə mövcud şəraitdə məktəbin ehtiyaclarını ödəmək imkanında deyildir. Dünya düzənində özünü göstərən hərəkətlilik, maariflənmənin və yeniləşmənin çeşidliliklə özünü göstərən mənzərəsi milli məfkurəni, kimlik səviyyəsində topluma yönəlik tərbiyə modellərinin əsas götürülməsini ziyalı mühiti qarşısında bir vəzifə borcu olaraq qoyurdu. Oxu və hesab dərslikləri baxımından görülən işlər və atılan addımlar bunun dərki və zərurətindən qaynaqlanırdı. Çünki real vəziyyət və tədrisin ümumi problemləri milliliyi və etnoqrafik zınginliyi uşaqlara aşılamağı əsasa çevirirdi və buna daha çox ehtiyac yaranmaqda idi. H.Ə.Qayıbov bunu dərk etməklə ilk addımları atmağa başladı. Qazax qəzasındakı Salahlı kənd məktəbi, Qori müəllimlər seminariyasında görülən işlər bunun örnəyidi. Tiflis müsəlman məktəbinin birinci sinfi üçün işlənən "Məbdəyi-təlimi sibyan" ("Uşaqların ibtidai təlimi") kitabında ədib uşaqların yaş səviyyəsini, xalq dilinin sadə və anlaşıqlığını, mətn gərəkliyini və s. məsələləri nəzərə almağı bir prinsip olaraq əsas götürmüşdü. Bu uğurlu başlanğıc A.O.Çernyayevskinin "Vətən dili" (1882), R.Əfəndiyevin "Uşaq bağçası" (1898), "Bəsirətül-ətfal" (1901) dərsliklərinin və sonrakılarının yaranması üçün əsas oldu.

Görkəmli maarifçi H.Ə.Qayıbov Tiflisdə müsəlman məktəbində hesab elminin öyrədilməsinin problemlərini aradan qaldırmaq sahəsində də gərəkli addımlar atmışdır. "Məsaili-elmi-hesab" dərsliyi bunun nümunəsidir və təxminən 1862-1865-ci illər tədris ehtiyaclarını aradan qaldırmağa hesablanmışdır. Tiflis müsəlman məktəbində oxuyan şagirdlərin riyazi təsəvvürlərini genişləndirməyə və bu istiqamətdə ehtiyacların aradan qaldırılmasına söykənən bu kitab sonrakı dönəm görülən işlər üçün bir vasitə olmuşdur. Dövrün problemlərinə hesablanmış məqalələri ("Zaqafqazın əhli-təsənni idareyi-ruhaniyəsinin sədri Zaqafqaz müftisi Hüseyn əfəndi Qayıbov tərəfindən ümummüsəlman – müvəhhəddini -Zaqafqaza tövsiyənaməsi", "İkinci məktub", "Orenburq müftisi Sultanova", "Sətri-övrət xüsusunda", "Felyeton", "Rizaməndi" və s. məqalələri bütün tərəfləri ilə ədibin ziyalı dünyagörüşünün

məzmununu ehtiva etmək xüsusiyyəti ilə səciyyələnir. "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" adlı dördcildliyi H.Ə.Qayıbovun Azərbaycan ədəbiyyatına verdiyi əvəzsiz töhfədir. Bütün bunlar görkəmli ədəbiyyatşünas, maarifçi, təhsil fədaisi, ictimai xadimin fəaliyyətinin həyat və yaşam örnəyidir.

**Nəticə**. On doqquzuncu yüzillik ictimai-siyasi, ədəbi-mədəni tariximizdə gərəkli işlərə imza atmış H.Ə.Qayıbovun Qazax qəzasının Salahlı kəndindən başlayan ömür yolu elmin, maarifin, mədəniyyətin, milli-mənəvi məfkurənin gələcəyə daşınmasında əvəzsiz bir nümunə olması ilə spesifikləşir. Milli düşüncənin etnoenerji olaraq yaşanışı (yaranışı), ötürülməsi və gələcəyə daşınışı baxımından örnəyə çevrilən böyük maarifçinin yaşam konsepsiyası sonrakı dönəmlər üçün məktəb rolunu oynayır. Uşaq dərslikləri, məktəb, tədris, ədəbiyyatşünaslıq sahəsindəki gərəkli fəaliyyəti H.Ə.Qayıbovun adının xalqın mədəniyyət tarixinə xüsusi hərflərlə yazılması üçün əsas olmuşdur.

**İstifadə edilmiş ədəbiyyat**


1. Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası. Bakı: Elm, 1998, 300 s.
2. Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir. Bakı: Elm, 1986, 360 s.
3. Cəlal M.,Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı Maarif, 1982, 428 s.
4. Dadaşlı Y. Hüseyn Əfəndi Qayıbov: həyatı və fəaliyyəti. Bakı: Elm və təhsil, 2024, 336 s.
5. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992, 477 s.
6. Əfəndizadə R. Zaqafqaziya müftisi Hüseyn əfəndi Qayıbovun tərcümeyi-əhvalı. "İqbal" qəz. 12 yanvar, 1914, № 55.
7. Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014. - səh. 137-140.
8. İsayev İ. Pedaqoji irsimizdən: M.V.Vidadidən H.K.Sanılıyadək. Bakı: ADPU, 2014, 406 s.
9. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1966, 488 s.
10. Qayıbov H. Məcmuə. Fond 514, siyahı 1, qovluq 394, sax. vah. 106
11. Mavarayi-bəhri -Xəzər xəbərləri. "Kəşkül" qəz. 6 sentyabr 1986, № 40
12. Məmmədov M., Babayev Y., Cavadov T. Pedaqoji mühit və uşaq ədəbiyyatı. Bakı: Maarif, 1992, 288 s.
13. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: BDU, 2007, 444 s.
14. Nəzirli Ş. Qoridən gələn qatar. Bakı: Şərq-Qərb, 2018, 492 s.



**Açar sözlər**. H.Ə.Qayıbov, uşaq dərslikləri, məktəb, təhsil, uşaq folkloru, maarifçilik hərəkatı və s.
**Keywords.** H.A. Gayibov, children's textbooks, school, education, children's folklore, enlightenment movement, etc.
**Ключевые слова.** Х.А. Гаибов, детские учебники, школа, образование, детский фольклор, просветительское движение и др.


## HUSEYN EFENDI GAYIBOV: GREAT EDUCATOR, LITERARY SCIENTIST

### Summary


In the renewed literary-cultural, socio-political, artistic-aesthetic ideology of the nineteenth century, the principle of taking the national-moral system as the basis among the parties charged with functional content is purely connected with reality. The crystal morality, educational norms and the idea of shaping the future, molded over thousands of years, significantly transformed a number of additions, workings, norms and principles into the basis in the new conditions. The enlightenment movement, the work of creating children's literature, women's education, the issue of creating new-type schools, textbooks, and the problems of secular education were the main ones, which were in the center of attention of the intellectual environment. The steps taken in this direction and the multifaceted activity of the great enlightener, literary critic, and public figure Huseyn Efendi Gayibov are a typical example of the path taken.

Ethnic memory, the ideology revealed at the archetypal level of national identity, has always been the basis for expansions, awakenings marked by the old layer in the context of the environment and chronotope, and additions in the form of a consortium. The national liberation struggle led by the generation of intellectuals who were rooted in progressive thought, such as A.Bakikhanov, M.Sh.Vazeh, I.Gutgashinli, M.F.Akhundov, H.Zardabi, S.A.Shirvani, S.Unsizadeh, etc., is a classic example of this. Because the renewed face of the world and the geocultural and geopolitical landscape (and ideology) of Europe, with its entire paradigm, marked the prospects of the path to be taken by penetrating the genealogy of society at the level of literary movements. The spectra of such a formula of fervor and penetration brought national awakening to the forefront by turning synchronous and diachronic openings into a necessity. H.A.Gayibov's enlightenment worldview, literary criticism activity, and ideology of public activity were rooted in the introduction of this process to the social sphere with its spontaneous character, and the understanding of complex-scale developments at the level of society.


## ГУСЕЙН ЭФЕНДИ ГАИБОВ: ВЕЛИКИЙ ПРОСВЕТИТЕЛЬ, ЛИТЕРАТУРНЫЙ КРИТИК

### Резюме


В обновленной литературно-культурной, социально-политической, художественно-эстетической идеологии XIX века принцип принятия национально-нравственной системы за основу среди партий, наделенных функциональным содержанием, основан исключительно на реальности. Кристаллическая мораль, образовательные нормы и идея формирования будущего, формировавшиеся на протяжении тысяч лет, превратили ряд дополнений, практик, норм и принципов в важные основы в новых обстоятельствах. В центре внимания интеллектуальной среды находились просветительское движение, работа по созданию детской литературы, женское образование, вопрос создания школ нового типа, учебников, проблемы

светского образования. Предпринятые в этом направлении шаги и многогранная деятельность великого просветителя, литературоведа, общественного деятеля Гусейна Эфенди Гаибова являются характерным примером пройденного пути.

Этническая память, идеология, выраженная на архетипическом уровне национальной идентичности, всегда была основой для расширений, пробуждения старого пласта в контексте среды и хронотопа, дополнений в виде консорциума. Национально-освободительная борьба, которую вело поколение интеллигентов, укорененных в прогрессивной мысли, таких как А. Бакиханов, М. Ш. Вазе, И. Гутгашинли, М. Ф. Ахундов, Г. Зардаби, С. А. Ширвани, С. Унсизаде и другие, является классический пример этого. Потому что меняющийся облик мира, геокультурный и геополитический ландшафт (и идеология) Европы со всей ее парадигмой обозначили перспективы пути, по которому следовало пойти, проникнув в генеалогию общества на уровне литературного движения. Спектр такой формулы пыла и проникновения выдвинул на первый план национальное пробуждение, сделав синхронные и диахронические развертывания необходимостью. Просвещенное мировоззрение, литературная критика и идеология общественной деятельности Х.А.Гаибова коренились в стихийности этого процесса, его внедрении в социальную сферу, понимании сложных масштабных процессов на общественном уровне.

**RƏYÇİ: dos. S.Abbasova**